*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 oktyabr 2020-ci il № 63 (2481) Qiyməti 30 qəpik


# Prezident İlham Əliyev: Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir

*Sentyabrın 30-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ermənistanın sentyabrın 27-dən başlayan hərbi təxribatı zamanı yaralanan və Silahlı Qüvvələrin Baş Klinik Hospitalında müalicə olunan hərbçilərlə görüşüblər.*

*AZƏRTAC xəbər verir ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Ali Baş Komandan İlham Əliyevə raport verdi.*

*Dövlətimizin başçısı görüşdə çıxış etdi.*



- Allah şəfa versin. Əziz uşaqlar, siz Vətən uğrunda gedən döyüşlərdə müxtəlif xəsarətlər almısınız, yaralanmısınız. Həkimlər sizə yaxşı baxırlar. Əminəm, həkimlər əllərindən gələni edəcəklər ki, siz tezliklə sağalıb normal həyata qayıdasınız.

Mənə verilən məlumata görə, bizim bütün yaralı əsgər və zabitlərimiz bir arzu ilə yaşayırlar ki, tezliklə sağalıb yenə də döyüş bölgələrinə getsinlər, Vətən uğrunda haqlı savaşını davam etdirsinlər. Bizim işimiz haqq işidir, biz öz torpağımızda vuruşuruq, Vətən uğrunda vuruşuruq. Bizim davamız ədalətli davadır və əminəm ki, bu münaqişədə biz istədiyimizə nail olacağıq, haqq-ədalət öz yerini tapacaq və Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Uzun illər ərzində məcburi köçkün kimi yaşayan soydaşlarımız da öz doğma dədə-baba torpaqlarına qayıdacaqlar.

Bildiyiniz kimi, şəhid ailələrinə ölkəmizdə xüsusi diqqət göstərilir, dövlət tərəfindən bütün lazımi işlər görülür. Deyə bilərəm ki, Azərbaycan şəhid ailələrinə göstərilən diqqətə görə dünya miqyasında nümunə sayıla bilər. Bilirsiniz ki, mənim göstərişimlə bütün şəhid ailələri dövlət tərəfindən mənzillərlə, evlərlə təmin edilir. Təkcə bu il 1500 şəhid ailəsi dövlət tərəfindən mənzillərlə təmin ediləcəkdir. Yaxın 2-3 il ərzində birinci Qarabağ müharibəsində həlak olmuş qəhrəman övladlarımızın ailələri tam miqyasda evlərlə, mənzillərlə təmin olunacaqdır. Biz bu gün də şəhidlər veririk, Vətən uğrunda gedən döyüşlərdə şəhidlərimiz olubdur. Allah bütün şəhidlərimizə rəhmət eləsin, Allah onların ailələrinə, yaxınlarına səbir versin. Onların qanı yerdə qalmır və qalmayacaqdır. Düşmənə layiqli cavab verilir.

Eyni zamanda, Qarabağ qazilərinə də dövlət tərəfindən lazımi dəstək göstərilir, onların məişət problemləri həll olunur. Siz də əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq və sizin tezliklə burada sağalıb normal həyata qayıtmağınız üçün həkimlər əllərindən gələni edirlər və edəcəklər.

Mən bir daha demək istəyirəm ki, Azərbaycan öz doğma torpağında vuruşur və siz haqq yolunda yaralanmısınız. Bizim əsgərlərimiz xilaskar əsgərlərdir. Erməni əsgərləri işğalçı əsgərlərdir. Fərq bundadır. Biz öz torpağımızda vuruşuruq, erməni əsgəri başqa dövlətin torpağında - Azərbaycan torpağında ölür. Mən erməni xalqına üz tutub demək istəyirəm ki, onlar öz rəhbərliyinin çirkin əməllərinin girovuna çevrilməsinlər. Bu gün öz hökumətini məsuliyyətə cəlb etsinlər. Öz övladlarını Azərbaycan torpaqlarına göndərməsinlər. Nə işi var erməni əsgərinin Azərbaycan torpağında? Biz öz torpağımızda vuruşuruq. Bizim əsgər və zabitlərimiz öz torpağında həlak olur, öz torpağında yaralanır və biz öz torpaqlarımızı azad edirik. Artıq dördüncü gün davam edən döyüşlərdə Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək strateji yüksəklikləri işğalçılardan azad edib, bir neçə yaşayış məntəqəsini işğaldan azad edib, uzun fasilədən sonra biz bu torpaqlara qayıtmışıq. Bu torpaqlarda öz bayrağımızı sancmışıq və artıq bu torpaqlardan bizi heç kim çıxara bilməz, biz öz ərazi bütövlüyümüzü bərpa etməliyik. Ona görə erməni xalqı bunu anlamalıdır. Anlamalıdır ki, 30 ilə yaxın başqa dövlətin torpağını zəbt etmək, orada bütün binaları, bütün tarixi abidələri dağıtmaq, 1 milyondan çox insanı öz doğma torpağından didərgin salmaq, Azərbaycan xalqına qarşı soyqırımı törətmək cinayətdir. Biz tarixi ədaləti bərpa edirik, tarixi ədaləti! Qarabağ bizim doğma, əzəli, tarixi torpağımızdır. Qarabağ xanlığının tarixinə baxmaq kifayətdir ki, hər kəs görsün, Azərbaycan xalqı əsrlər boyu bu torpaqlarda yaşayıb, qurub, yaradıb. Bizim müqəddəs ocağımız Şuşa şəhəri azərbaycanlılar tərəfindən salınıb. Bu gün işğal altında olan torpaqlar bizim tarixi torpaqlarımızdır. Bizim işimiz haqq işidir. Biz öz ərazi bütövlüyümüzü bərpa etmək istəyirik, buna bizim haqqımız çatır, bunu edirik və edəcəyik.

**(Ardı 2-ci səhifədə)**

# Prezident İlham Əliyev: Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir

(Əvvəli 1-ci səhifədə)

Erməni xalqı əgər sülh şəraitində yaşamaq istəyirsə, öz hakimiyyətini məsuliyyətə cəlb etsin. Çünki erməni xalqının bədbəxtliyi ondan ibarətdir ki, uzun illər ərzində ona quldur kriminal rejim rəhbərlik edib. O rejim ki, ancaq öz şəxsi maraqlarını güdmək üçün azərbaycanlılara qarşı soyqırımı törədib və bizim torpaqlarımızı işğal altında saxlayır. Mən əminəm ki, erməni xalqı mənim bu sözlərimi düzgün başa düşəcək, düzgün anlayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur. Azərbaycan çoxmillətli dövlətdir və burada bir çox millətlər sülh, əmin-amanlıq şəraitində yaşayır, o cümlədən erməni xalqı. Minlərlə erməni Azərbaycan ərazisində yaşayır. Onlara söz deyən yoxdur, onlar bizim vətəndaşlarımızdır. Ona görə bizim davamız haqq davasıdır. Biz tarixi nöqteyi-nəzərdən, beynəlxalq hüquq nöqteyi-nəzərdən, ədalət nöqteyi-nəzərdən haqlıyıq. Azərbaycan əsgəri, zabiti öz doğma torpağı uğrunda vuruşur. Bu gün Füzulidə, Cəbrayılda, işğal edilmiş digər ərazilərdə şiddətli döyüşlər gedir və biz itkilər veririk, bizim qazilərimiz, hərbçilərimiz yaralanır. Amma bu dava haqq davasıdır. Ona görə mən bir daha demək istəyirəm ki, bizim işimiz haqq işidir, tarixi həqiqət, beynəlxalq hüquq, haqq-ədalət 100 faiz bizim tərəfimizdədir.

Sentyabrın 27-də erməni silahlı birləşmələri bizə qarşı növbəti hərbi təxribat törədib. Mən onları xəbərdar etmişdim. Onlara BMT kürsüsündən sözlərimi demişdim. Bütün beynəlxalq ictimaiyyətə sözlərimi demişdim ki, Ermənistan yeni müharibəyə hazırlaşır, Ermənistan dayandırılmalıdır. Əfsuslar olsun ki, beynəlxalq ictimaiyyət və bu məsələ ilə məşğul olan tərəflər erməni hökumətinə lazımi səviyyədə təsir edə bilməmişlər. Əgər onlar işğalçını dayandıra bilmirlərsə, Azərbaycan əsgəri onları dayandıracaqdır. Azərbaycan əsgəri onları öz torpaqlarından çıxaracaq və haqq-ədaləti bərpa edəcək. Mən demişdim ki, əgər iyul və avqust aylarında bizə qarşı törədilmiş hərbi təxribatlar təkrarlanarsa, Ermənistan peşman olacaq və sözümün üstündə dururam. Bu gün döyüş meydanında əldə olunmuş üstünlük, azad edilmiş yaşayış məntəqələrimiz, strateji yüksəkliklər bir daha onu göstərir ki, Azərbaycan əsgəri, Azərbaycan zabiti öz vətəndaşlıq borcunu şərəflə yerinə yetirir.

Ermənistan işğalçılıq siyasətinə son qoymalıdır. Bunun əvəzinə Ermənistanın baş naziri bizə qarşı şərtlər qoyur. Bizə qarşı yeddi şərt qoyubdur. Mən bir müddət bundan əvvəl demişdim ki, biz bu şərtləri rədd edirik. Bizim bir şərtimiz var, torpaqlarımızdan qeyd-şərtsiz, tam və dərhal çıxıb rədd olmalıdırlar. Bu şərtimə qüvvədədir və əgər bu şərtimə Ermənistan hökuməti əməl



edərsə, döyüşlər dayanacaq, qan tökülməyəcək, sülh olacaq, bizim bölgəmizə sülh gələcək. Biz sülh istəyirik, biz məsələnin həllini istəyirik, əks təqdirdə 30 ilə yaxın danışıqlara ümid bəsləməzdik. Danışıqlara bizim sadiq qalmağımızın yeganə səbəbi o idi ki, ümid var idi. Bizə ümidlər verilirdi, bizə siqnallar göndərilirdi ki, bir qədər səbir edin, məsələ həll olunacaq. Amma mən demişdim ki, Azərbaycan xalqı bu işğalla heç vaxt barışmayacaq. Demişdim ki, əgər məsələ danışıqlar yolu ilə həll olunmazsa, Azərbaycanın tam haqqı var ki, məsələ hərbi yolla öz həllini tapsın. Bu haqqı bizə Azərbaycan xalqı verib, bu haqqı bizə beynəlxalq hüquq normaları verib. Dünyanın ali beynəlxalq qurumu olan BMT-nin nizamnaməsində göstərilir ki, hər bir dövlətin özünümüdafiə haqqı var və biz bundan istifadə edirik, özümüzü müdafiə edib, əks-hücum əməliyyatına keçib bu gün düşmənə sarsıdıcı zərbələr endiririk.

Hələ ki, gec deyil. Mən bir daha sözümü demək istəyirəm ki, Ermənistan bizim torpaqlarımızdan dərhal çıxmalıdır. Bilirsiniz ki, indi müxtəlif beynəlxalq təşkilatların, müxtəlif ölkələrin rəhbərləri mənə zəng edirlər, məsələ ilə bağlı maraqlanırlar, öz fikirlərini söyləyirlər. Mənim sözüm birdir, həm beynəlxalq müstəvidə, həm ölkə daxilində ki, biz haqq yolundayıq, döyüşlər Azərbaycan torpağında gedir, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir və bizim buna tam haqqımız çatır. Çünki dünyanın heç bir dövləti qondarma "Dağlıq Qarabağ respublikası"nı tanımır. Bu, bizim tarixi torpağımızdır. Beynəlxalq hüquq baxımından da bu, bizim torpağımızdır.

Mən əminəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edəcək. Orduda ruh yüksəkliyi var. Siz də bunu yaxşı bilirsiniz. Cəmiyyətdə ruh yüksəkliyi var. Mənə artıq bu son 3-4 gündə hər gün çoxlu məktublar gəlir, həm ölkə vətəndaşlarından, həm də digər ölkələrin vətəndaşlarından. Xaricdən ən çox məktublar qardaş Türkiyədən gəlir. Türk qardaşlarımız o məktublarda bizimlə bərabər bu haqlı davada vuruşmaq barədə öz istəklərini ifadə edirlər. Mən onlara təşəkkür edirəm. Amma bir daha demək istəyirəm ki, buna ehtiyac yoxdur. Azərbaycan Ordusu kifayət qədər güclü ordudur, təchiz edilmiş ordudur. Biz bu işi elə həll etməliyik ki, tarixi ədalət bərpa olunsun. Eyni zamanda, qardaş Türkiyəyə, onun Prezidentinə, mənim qardaşım Rəcəb Tayyib Ərdoğana qətiyyətli mövqeyinə, qardaşlıq mövqeyinə görə bu gün sizin yanınızda sizin adınızdan, bütün Azərbaycan xalqı adından dərin təşəkkürümü bildirirəm. Çünki əziz qardaşımın çox açıq açıqlamaları və sərt bəyanatları bir daha göstərir ki, Azərbaycan tək deyil. Türkiyə Azərbaycanın yanındadır və Azərbaycan da hər zaman Türkiyənin yanındadır! Mən artıq demişəm, bir daha demək istəyirəm ki, bu qanlı döyüşlər bizim üçün, bütün Azərbaycan xalqı üçün həqiqət anıdır. Biz görürük kim kimdir. Biz görürük ki, bəzi hallarda yaxşı sözlər deyən, yaxşı bəyanatlar verən bəzi tərəflər öz sözünün arxasında durmur. Sözdə bir şey deyilir, əməldə başqa şey edilir. Amma Türkiyə, Pakistan, Əfqanıstan birmənalı şəkildə Azərbaycanı dəstəklədilər. Bilirsiniz, danışıqlarla məşğul olan beynəlxalq format var. Əfsuslar olsun ki, bu format, heç bir nəticə hasil etməyib. Ona görə indiki şəraitdə hansısa tərəflərdən dialoqa çağırış hesab edirəm ki, yersizdir. Bunu beynəlxalq təşkilatlar edir, bunu BMT edir. Biz bunu, təbii ki, qəbul edirik. Bunu ATƏT edir, biz bunu qəbul edirik. Çünki ATƏT-in mandatı var. Yoxsa ki, kimsə deyir gəlin belə dialoqu başlayaq, biz də kömək edək, bunlara ehtiyac yoxdur. İndi həqiqət anıdır. Sən kimin tərəfindəsən? Haqqın, yoxsa, şərin? Dostun, yoxsa, düşmənin? Həqiqət anıdır - mənim üçün, xalqımız üçün, hamımız üçün.

Əlbəttə ki, bu günlərdə bizə dəstək olan ölkələri, təşkilatları, insanları heç vaxt unutmayacağıq. Bilirsiniz ki, Azərbaycan dünyada güclü mövqelərə malikdir. Son illər ərzində biz beynəlxalq təşkilatlarda kifayət qədər səmərəli fəaliyyət göstərmişik və haqlı olduğumuzu sübut edə bilmişik. Biz bunu sübut etməli idik ki, biz haqlıyıq. Artıq deməк olar ki, bütün əsas beynəlxalq təşkilatlar bizim mövqeyimizi dəstəkləyir. BMT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, Avropa Parlamenti, ATƏT - bütün bu təşkilatlar bizim mövqeyimizi dəstəkləyən bəyanatlar veriblər. Biz buna görə minnətdarıq. Bu, məsələnin hüquqi tərəfidir. Tarixi tərəfinə gəldikdə isə, tarixi həqiqət bizim tərəfimizdədir. Hər kəs internetə girib oxuya bilər. Qarabağ xanlığının tarixi ilə əlaqədar materiallar var. Qarabağ xanlığının Rusiya imperiyasına daxil edilməsi ilə əlaqədar məlumatlar var. Kürəkçay sülh müqaviləsi haqqında məlumatlar var. Kürəkçay sülh müqaviləsini bir tərəfdən bağlayan İbrahim Xəlil Xan şuşalı və qarabağlı, - müqavilədə belə də yazılmışdır, - şuşalı və qarabağlı İbrahim Xəlil Xan. Digər tərəfdən çar Rusiyasının generalı imzalamışdır. Kürəkçay sülh müqaviləsində erməni xalqı haqqında bir kəlimə də yoxdur. Bu, nəyi göstərir? Onu göstərir ki, o vaxt orada erməni əhalisi olmayıb, ondan sonra köçürülüb. Ondan sonra onlar artıq orada yerləşiblər və sonra bizə qarşı ərazi iddiaları qaldırıblar. Ona görə biz tamamilə haqlıyıq. Bizim davamız haqq davasıdır. Biz öz prinsipial mövqeyimizdən dönməyəcəyik. Mən bunu bütün beynəlxalq kürsülərdən dəfələrlə demişəm, bu gün də deyirəm ki, biz haqq yolundayıq. Ərazi bütövlüyümüzü bərpa etməliyik və edəcəyik.

Mənə gələn məlumatlar onu göstərir ki, bu son üç-dörd günün hadisələri Ermənistan rəhbərliyi üçün dərs olmur. Onlar yeni təxribatlar hazırlayır, bizim yaşayış məntəqələrimizi yenə də atəşə tutmaq istəyirlər və bunu davam edirlər. Hər gün mülki əhali arasında itkilərimiz artır. Dünən səhərə olan məlumata görə bizim 10 mülki vətəndaşımız həlak olmuşdur. Bu gün səhər mənə verilən məlumata görə isə həlak olan mülki vətəndaşların sayı 13-ə çatıb. Bu, nə deməkdir? Bu, erməni faşizminin eybəcər sifətini göstərir. Biz mülki əhaliyə qarşı heç vaxt vuruşmamışıq. Əks-hücum əməliyyatı başlanan kimi mən bizim bütün komandanlara və Müdafiə Nazirliyinə göstəriş verdim ki, mülki əhaliyə qarşı heç bir addım atılmamalıdır. Bizim hədəflərimiz erməni silahlı birləşmələrinin mövqeləri, texnikası, canlı qüvvəsidir. Amma onlar bizim kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar, 13 dinc insan həlak olub, 40-dan çox mülki şəxs yaralanıb, 168 ev dağıdılıb. Budur, erməni faşizminin sifəti. Onlar döyüş meydanında bizim qarşımızda dura bilmirlər, kəndlərimizi, şəhərlərimizi vururlar. Amma orada yaşayan soydaşlarımızın hamısı yerindədir, hamısı "Vətən sağ olsun" deyirlər. Bir santimetr geri addım atmayıblar və əminəm ki, atmayacaqlar. Onlar əmindirlər ki, Azərbaycan Ordusu onları müdafiə edəcək. Onlar səbirsizliklə o anı gözləyirlər ki, işğal edilmiş torpaqlarda Azərbaycan bayrağı qaldırılsın və işğala son qoyulsun.

Mən sizi təbrik etmək istəyirəm. Çünki siz gənc yaşlarınızda böyük qəhrəmanlıq, şücaət göstərib, Vətən uğrunda şərəflə vuruşub öz adlarınızı Azərbaycan tarixinə yazdırırsınız. Eyni zamanda, sizi belə vəziyyətdə görmək mənim üçün, hamımız üçün çox ağırdır. Amma əmin ola bilərsiniz ki, sizin sağlamlığınız üçün nə lazımsa, biz onu da edəcəyik. Bizim bütün xəstəxanalarda, hərbi hospitallarda hazırda müalicə alan hər bir insan xüsusi qayğıya layiqdir və bütün həkimlər, nəinki həkimlər, bizim bütün xalqımız sizə dəstək olmalıdır. Siz əmin ola bilərsiniz ki, dövlət sizin yanınızda olacaq. Bir arzumuz var ki, siz tezliklə sağalıb, normal həyata qayıdıb öz şərəfli missiyanızı davam etdirəsiniz. Gənclər üçün siz nümunə olmalısınız, örnək olmalısınız. Azərbaycan xalqı qəhrəman xalqdır ki, sizin kimi övladlar yetişdirib.

Mən fürsətdən istifadə edib, sizin və bu gün bütün digər yaralı hərbçilərimizin, eyni zamanda, şəhid olmuş hərbçilərimizin valideynləri qarşısında baş əyirəm. Onlara öz adımdan, Azərbaycan xalqı adından təşəkkürümü bildirirəm. Qəhrəman övladlar yetişdiriblər. Əminəm ki, onlar və bütün Azərbaycan xalqı sizinlə qürur duyur. Biz zəfər çalacağıq, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Mayor Etibar Camalov: Cənab Ali Baş Komandan, cənab Prezident, çox sağ olun. Həqiqətən də, Azərbaycan əsgəri düşmənin qarşısını aldı, düşmənə layiqli cavablar verdi. Bu gün də hər bir insan yenə ön xəttə qayıtmağa hazırdır. Sizin bu qüdrətli sözlərinizdən biz qürur duyuruq. Hər zaman torpağımız, dövlətimiz üçün şam kimi yanmağa hazırıq. Çox sağ olsun həkim kollektivi, bizə çox böyük diqqət göstərir. Çox yaxın bir zamanda bütün döyüşçü yoldaşlarımızla cəbhə bölgəsinə qayıtmağa hazırıq. Çox sağ olun.

# Ordumuzun əks-hücum əməliyyatları davam edir

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, bütün cəbhə boyu döyüşlər davam edir. Azərbaycan Ordusunun artilleriya bölmələri düşmənə sarsıdıcı zərbələr endirir.*



Sentyabrın 30-da səhər saat 08.00-dan etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini artilleriya atəşinə tutur.

İlkin məlumata görə mülki infrastruktura ziyan dəyib və yaralılar var.

* * *

İşğal olunmuş torpaqlarımızın azad olunması uğrunda Azərbaycan Ordusunun apardığı gərgin döyüşlər davam edir.

Sentyabrın 27-dən bu gün səhər saatlarınadək düşmənin 2300 nəfərədək canlı qüvvəsi məhv edilib və yaralanıb, 130-dək tank və digər zirehli texnikası, 200-dən artıq artilleriya, yaylım atəşli raket sistemləri, minaatan, 25-dək hava hücumundan müdafiə vasitələri, 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqələri, 5 silah-sursat anbarı, 50-dək tankəleyhinə vasitələr, 55 ədəd avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Xocavənd rayonunun Şuşakənd ərazisində düşmənin 1 S-300 zenit-raket qurğusu sıradan çıxarılıb.

İtirilmiş mövqeləri geri qaytarmaq üçün Madagiz istiqamətinə əlavə qüvvələr cəmləşdirən düşmən sentyabrın 30-u səhər saatlarından başlayaraq hücuma cəhd göstərib. Düşmənin bu fəaliyyətinin qarşısı alınır və onun müqavimətinin qırılması məqsədilə qoşunlarımız tərəfindən əkshəmlə əməliyyatı keçirilir.

Hazırda bütün cəbhə boyu hərbi əməliyyatlar davam edir.

* * *

Qoşunlarımızın zərbələrinə məruz qalan Ermənistanın 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının Tonaşendə yerləşən 7-ci dağatıcı alayının 2-ci taboru ağır itkilərə məruz qaldığından komandanlıqdan təcili surətdə kömək istənilib. Köməyə gələn ehtiyat qüvvələr tərəfimizdən aşkar olunaraq atəş zərbəsi ilə məhv edilib.

* * *

Azərbaycan Ordusunun bölmələri tərəfindən Tonaşəndə düşmənin iki tankı məhv edilib.

* * *

Bir müddət əvvəl Ermənistan silahlı qüvvələri "Toçka-U" taktiki raket kompleksini tətbiq edib.

Düşmənə məxsus hərbi texnikanın köhnə və keyfiyyətsiz olması səbəbindən atılan raketlərdən üçü partlamayıb.

* * *

Sentyabrın 30-da cəbhənin müxtəlif istiqamətlərində düşmənin 1 ədəd "Uraqan" yaylım atəşli reaktiv sistemi, 1 ədəd "OSA" zenit-raket kompleksi, 3 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 1 ədəd piyadanın döyüş maşını və 2 ədəd D-20 haubitsa-topu məhv edilib.

* * *

Sentyabrın 30-da Azərbaycan Ordusunun bölmələri tərəfindən saat 17:30-dək düşmənin 2 ədəd "OSA-AKM" zenit-raket kompleksinin döyüş maşını, 1 ədəd BM-21 "Uraqan" yaylım atəşli reaktiv sistemi, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 4 ədəd "D-20" haubitsa-topu, 16 ədəd tank, 1 ədəd piyadanın döyüş maşını və şəxsi heyətlə 2 ədəd yük maşını məhv edilib və sıradan çıxarılıb.

* * *

Sentyabrın 30-da Ağdərə (Madagiz) istiqamətində gedən döyüşlər zamanı Ermənistan ordusunun darmadağın edilən 6-cı dağatıcı alayına köməyə gələn 193-cü əlahiddə həmlə taborunun döyüş bayrağı və sənədləri ələ keçirilib.



* * *

Sentyabrın 30-da Azərbaycan Ordusunun bölmələri axşam saatlarında keçirdiyi döyüş əməliyyatları nəticəsində düşmənin 8 ədəd "Qrad" yaylım atəşli reaktiv sistemini məhv edib.

* * *

Sentyabrın 27-si səhər saatlarından sentyabrın 30-u saat 21.30-dək düşmən canlı qüvvədə, hərbi və döyüş texnikasında xeyli itki verib və bütün cəbhə boyunca tutduqları mövqelərdən və ərazinin vacib sahələrindən geri çəkilməyə məcbur edilib.

Bu müddət ərzində düşmənin ümumi itkiləri aşağıdakı kimidir:

- 200-dək tank və digər zirehli texnika;
- 228 ədəd artilleriya, yaylım atəşli raket sistemləri, minaatan;
- 30 ədəd hava hücumundan müdafiə vasitələri;
- 6 komanda-idarəetmə və komanda-müşahidə məntəqəsi;
- 5 silah-sursat anbarı;
- 110-dan artıq avtomobil texnikası;
- 1 ədəd "S-300" zenit-raket kompleksi.

Düşmənin müxtəlif istiqamətlərdə hərəkət edən hərbi kolonları bölmələrimiz tərəfindən məhv edilib.

* * *

Ermənistan silahlı qüvvələrinin işğal altında olan torpaqlarımızda tutduqları mövqelərinə gecə ərzində bölmələrimiz tərəfindən sarsıdıcı artilleriya zərbələri endirilib.

* * *

Oktyabrın 1-i səhər saatlarından etibarən Ermənistan silahlı qüvvələrinin bölmələri Tərtər şəhərini yenidən artilleriya atəşinə tutur.

Azərbaycan Ordusunun bölmələrinin hücumlarının təzyiqləri altında Ermənistan hərbi birləşmələri bütün cəbhə boyu ağır itkilər verir.

Məlum olub ki, Azərbaycanın işğal olunmuş ərazilərində yerləşən erməni hərbi birləşmələri öz bölmələrinin maddi-texniki təminatında ciddi çətinliklərlə üzləşir.

Ermənistanın hərbi komandanlığını narahat edən məqam odur ki, bölmələrimizin hücumlarına məruz qalmaqdan qorxan arxa cəbhə hərbi qulluqçuları döyüş sursatı və yanacaq-sürtkü materiallarını ön xətt bölmələrinə çatdırmaqdan imtina edirlər.

# Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan ehtiyatları ilə bağlı heç bir problem yoxdur

## Müdafiə Nazirliyinin Tibb Baş İdarəsində qaynar xətt fəaliyyətə başlayıb

Azərbaycana qarşı Ermənistan tərəfindən başlanan genişmiqyaslı hücumun ilk saatlarından Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin bütün hərbi tibbi personalı gücləndirilmiş iş rejimində fasiləsiz tibbi xidmət göstərir.

Döyüşlər gedən bütün istiqamətlərdə mobil səhra cərrahiyə hospitalları fəaliyyətdədir və tibb müəssisələri peşəkar həkim kadrları ilə tam komplektləşdirilib. Hərbi tibb müəssisələrinə daxil olan yaralılar arasında həyatını itirən hərbi qulluqçumuz yoxdur. Bütün imkanlarımız səfərbər olunub və yaralı hərbi qulluqçuların tezliklə müalicə olunaraq öz sağlamlıqlarına qovuşmaları üçün hərbi tibb personalı var qüvvəsi ilə çalışır.

Azərbaycan Ordusunda tibbi təminat, təchizat və qan komponentləri ehtiyatları ilə bağlı heç bir problem yoxdur.

Ordumuzun qan və qan komponentlərinə olan tələbatı Silahlı Qüvvələrin Baş Klinik Hospitalının Qan Bankı bölməsi tərəfindən tam təmin edilir və hərbi tibb müəssisələrində bütün qan qruplarından ehtiyatlar mövcuddur.

Bildiririk ki, hərbi qulluqçuların valideynlərini narahat edən məsələlərlə bağlı müraciətləri qəbul etmək məqsədilə Müdafiə Nazirliyinin Tibb Baş İdarəsinin nəzdində sutka ərzində fasiləsiz fəaliyyət göstərən qaynar telefon xətti açılıb.

Vətəndaşlar (012) 406-68-58, (012) 406-68-84, (012) 406-72-52, (012) 406-72-77 nömrəli telefonlara zəng edərək onları maraqlandıran suallarla bağlı müraciət edə bilərlər.

Eyni zamanda vətəndaşlardan telefon xətlərinin həddən artıq yüklənməməsi və normal qaydada fəaliyyət göstərməsi məqsədilə ehtiyac olmadığı halda zəng etməmələrini xahiş edirik.

# "Düşmənin əks-hücum cəhdləri dəf edilib"



Füzuli rayonunun işğal altında olan Aşağı Veysəlli kəndi istiqamətindən üzbəüz mövqelərimizə basqın etməyə cəhd göstərən Ermənistan ordusunun hərəkətinin qarşısı bölmələrimiz tərəfindən qətiyyətlə alınıb və düşmən geri çəkilməyə məcbur edilib.

Bunu AZƏRTAC-a açıqlamasında Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

V.Dərgahlı bildirib ki, geri çəkilərkən məhv edilmiş erməni əsgərlərinin meyitləri döyüş meydanında qalıb.

* * *

Qarabağ səmasında Ermənistan ordusuna məxsus Su-25 təyyarəsinin vurulması erməni hərbi təbliğat maşınının növbəti fantaziyasıdır.

V.Dərgahlı bildirib ki, erməni KİV-lərinin Ermənistan ordusuna məxsus Su-25 təyyarəsinin guya F-16 qırıcısı tərəfindən vurulması barədə yaydığı məlumat yalandır. Bu, erməni hərbi təbliğat maşınının növbəti fantaziyasıdır.

* * *

Azərbaycan Ordusunun genişmiqyaslı döyüş əməliyyatı nəticəsində Ermənistan ordusunun Madagizdəki alayı tamamilə demoralizə olunub, ölümqabağı əzabları başlayıb.

V.Dərgahlı bildirib ki, şəxsi heyət təşviş içindədir. Dəstək məqsədilə yeni gələn ehtiyat qüvvələri də daxil olmaqla bir çoxları döyüşə girməkdən imtina edir və döyüş əməliyyatı rayonunu tərk edirlər.

* * *

Ermənistan tərəfi təxribat xarakterli məlumatlar yaymaqda davam edir.

V.Dərgahlı diqqətə çatdırıb ki, Azərbaycan Ordusunun azad etdiyi ərazilərinin bir qisminin Ermənistan ordusu tərəfindən guya geri qaytarılması barədə erməni tərəfinin yaydığı xəbər dezinformasiyadır. Bildiririk ki, azad etdiyimiz ərazilərin bir qarışı belə itirilməyib. Hazırda Azərbaycan Ordusu düşmənin müqavimətinin qırılması istiqamətində əməliyyatı həyata keçirir.

* * *

Azərbaycan Ordusunun bölmələri düşməni ağır məğlubiyyətə uğratmaqda davam edir.

V.Dərgahlı bildirib ki, bölmələrimiz bir neçə dəqiqə əvvəl Xocavənd (Martuni) rayonu istiqamətində Ermənistan silahlı qüvvələri bölmələrinin "Uraqan" yaylım atəş sistemini məhv edib.

* * *

Azərbaycan Ordusunun bölmələri Ermənistan silahlı qüvvələrinin 1-ci ümumqoşun ordusunun 10-cu dağatıcı diviziyasının 5-ci dağatıcı alayının Ağdərə yaşayış məntəqəsində yerləşən qərargahına zərbə endirib.

Düşmən canlı qüvvə və hərbi texnika baxımından xeyli sayda itki verib.

* * *

Ermənistan mətbuatında guya Azərbaycan Hərbi Hava Qüvvələrinə məxsus təyyarə və helikopterin vurulması və İran ərazisinə düşməsi barədə yayılan məlumatlar yalandır və əsassızdır.

Polkovnik Vaqif Dərgahlı bildirib ki, Hərbi Hava Qüvvələrimizə məxsus bütün aviasiya vasitələri tam tərkibdə sıradadır və döyüş qabiliyyətlidir.

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz güclü, iradəli ordu yaratmışıq

*Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən artilleriyadan istifadə etməklə hücuma keçdi. Azərbaycan Ordusunun bölmələri bu hücumun qarşısını qətiyyətlə aldı, əks-hücum əməliyyatı başladı.*

*Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında deyib: "Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır".*

*Döyüşlər gedir. Əks-hücum kimi başlayan bu döyüşlər torpaqlarımızın işğaldan tam azad edilməsiylə başa çatacaq. Xalq o günün uzaqda olmadığına əmindir. Döyüşlərdə qazanılan uğurlar qələbə ruhunun səviyyəsi kimi yaşanılır. Döyüşlərin iştirakçılarının ilkin təəssüratlarını dərc edirik.*

**"Azərbaycan Ordusu"**

*Əks-hücum əməliyyatından*



İllərdir həsrəti çəkilən, xəyalı qurulan o möhtəşəm günün tarixə yazılacaq saatları yaşanılır. Qüdrətli ordumuzun sıralanan Qələbə xəbərlərini almaqdayıq.

Ali Baş Komandanın əks-hücum əməliyyatı əmrini - torpaqlarımızın işğaldan azad edilməsi əmrini Azərbaycan Ordusu yüksək döyüş əzmi və igidliklə yerinə yetirir. Döyüşlərdə cəbhənin hərbi qulluqçular vəzifə borcunu layiqincə yerinə yetirərək torpaqlarımızın düşmən əsarətindən azad olunmasında şücaət göstərdilər. Şəxsi heyətin döyüş hazırlığının yüksək olması, silahların və hərbi texnikanın sirlərini dərindən bilməsi və mənəvi-psixoloji hazırlığının yüksək olması döyüşlərdə qələbəni təmin etdi.

Əks-hücum əməliyyatında



müxtəlif istiqamətlərində düşmən ordusunun hərbi obyektləri, döyüş texnikası və canlı qüvvəsi məhv edilib.

Aprel döyüşlərində mən də iştirak etmişəm. Onda bütün ordumuz düşmənə sarsıdıcı zərbələr vuraraq xeyli canlı qüvvəsini və döyüş texnikasını sıradan çıxartdı. Ordumuz Aprel döyüşlərində qazandığı zəfərlərlə onların "məğlubedilməz ordu" mifini darmadağın etdi. Düşmən isə öz ordusunun arxasında barrikadalar qurublar ki, qaçan əsgərlərini silah gücünə geri qaytarsınlar. Biz bu döyüşlərdən torpaqlarımızı işğaldan azad etmiş qalib ordu kimi çıxacağıq. Azərbaycan Ordusu qalib gələcək.

**Elsevər ƏLİYEV,**
**"N" hərbi hissəsinin zabiti**

Azərbaycan Ordusunun bölmələri düşmənin hücumunun qarşısını aldı, əks-hücum əməliyyatı başladı. Bu əməliyyat torpaqlarımızın işğaldan azad edilməsi ilə tamamlanacaq. Ordumuzun bölmələri düşməni mövqelərindən çıxmağa, döyüş-döyüş uzaqlaşmağa məcbur edir.

Hər döyüş bir tarixdir. Hər döyüşçü döyüşünə müvafiq olan bir tarix yazır. Bu tarixlər ayrılıqda əsgərin, ümumilikdə ordunun yazdığı tarixdir. 2016-cı ilin Aprel döyüşləri də tarixdir, 2020-ci ilin iyul döyüşləri də. Aprel döyüşlərində ordu bölmələrimiz düşmənin neçə illərlə möhkəmləndirdiyi müdafiə sədlərini darmadağın etdi. Həmin döyüşlərdə onların neçə-neçə döyüş texnikası, canlı qüvvəsi məhv edildi.

Aprel döyüşlərində mən də iştirak etmişəm. Zabitlərimiz də, əsgərlərimiz də mərdliklə vuruşurdular. Mən döyüşdə düşmənin 6 tankını məhv etdim. 2016-cı ilin aprelindən indiyədək döyüşlərin davamı olacağı günü mən də gözləyirdim. Söz düşəndə istər hərbçi yoldaşlarıma, istərsə də əzizlərimə deyirdim ki, düşmənin döyüş texnikalarını ürəyimi siləmiş Vətən sevgisi məhv etdi. Bu etiraf mənim Hərbi anda, hərbi xidmətə, dövlətə, dövlətçiliyə sədaqətimin etirafıdır...

Füzuli və Cəbrayıl istiqamətində gedən döyüşlərdə ilkin qələbələr qazandıq.

Biz Ali Baş Komandanın əks-hücum əmrini torpaqlarımızın işğaldan azad edilməsi üçün qalibiyyətlə nəticələnəcək əmr bilirik. Biz bu əmri



yerinə yetirəcəyik. Yaxın vaxtlarda ictimaiyyət bizə də, özünə də "Qələbəmiz mübarək!" deyəcək...

Böyük Qələbə uğrunda gedən döyüşlər davam edir. Ordu bölmələrimiz torpaqlarımızı düşməndən tamamailə azad edəcək. Hərbçilərimiz hər döyüşü qələbə ilə başa çatdıracaq.

Böyük Qələbə ərəfəsindəyik...

**Mirdamət BAĞIYEV,**
**"N" hərbi hissəsinin zabiti**

Azərbaycan Ordusu yüksək döyüş bacarığına malik zabitlərlə komplektləşdirilib. Şəxsi heyət təcrübəli zabtlərimizin tabeçiliyində xidmət edir, bu gün döyüşür. Bölmələrimiz Goranboy rayonu Talış kəndi istiqamətində əks-hücum əməliyyatlarında yüksək döyüş bacarığı nümayiş etdirirlər. Şəxsi heyətin döyüş və mənəvi-psixoloji hazırlığı, vətənpərvərlik ruhu yüksəkdir. Onlar torpaqlarımızın erməni işğalından azad olunması uğrunda böyük ruh yüksəkliyi ilə döyüşürlər. Cəsarətli zabitlərimiz düşmənin atəş nöqtələrinin susdurulmasında qətiyyətli, gərəkli əmrlər verirlər. İllərdir ermənilərin işğalında olan torpaqlarımız, yaşayış məntəqələrimiz, strateji əhəmiyyətli yüksəkliklər ordumuzun bölmələri tərəfindən azad olunur.

Ali Baş Komandanımızın döyüş əmrini həmişə səbirsizliklə gözləmişik. Erməni işğalçıları bilməliydilər ki, Azərbaycan dövləti və xalqı heç bir zaman işğalla barışmayacaq. Bu gün bizim başqa ölkənin torpağında gözümüz yoxdur. Düşmən də bilməlidir ki, torpaqlarımızdan imtina edən deyilik. Münaqişə sülh yolu ilə həll olunmadığına, düşmən təxribatını davam etdirdiyinə görə şanlı Azərbaycan Ordusu uğurlu əks-hücum əməliyyatı keçirir. Bu müharibə xalqımız üçün Vətən müharibəsidir. Bu müharibə Azərbaycan xalqının haqq savaşıdır. Bu münaqişə beynəlxalq müstəvidə həllini tapmırsa, Azərbaycan Ordusunun şəxsi heyəti Ali Baş Komandanın əmriylə münaqişəni döyüşlə həll edir. Bu gün ordumuz döyüş meydanlarında erməni işğalçılarının atəş nöqtələrini yüksək peşəkarlıqla susdurur, canlı qüvvəsini, texnikasını məhv edir. Bu proses torpaqlarımız işğaldan azad edilənədək davam edəcək. Azərbaycan Ordusunun şəxsi heyəti şərəfli tarix yazır, yazmağa davam edəcək. Bu gün işğaldan azad olunmuş ərazilərimizdə üçrəngli Azərbaycan bayrağımız dalğalanır. Ən böyük arzumuz bayrağımızı Şuşada dalğalandırmaqdır!

**Orxan RZAYEV,**
**"N" hərbi hissəsinin zabiti**

**(Ardı 5-ci səhifədə)**

## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Biz güclü, iradəli ordu yaratmışıq

(Əvvəli 4-cü səhifədə)

Vətənini, torpağını canından artıq sevən ordumuz Goranboy rayonunun Talış kəndi istiqamətində uğurlu döyüş əməliyyatları aparır. Tabeliyimdə olan şəxsi heyət yüksək döyüş məharətinə malikdir. Onların mənəvi-psixoloji hazırlığı, döyüş əzmi çox yüksəkdir. İllərdir təlimlərdə qazandıqları təcrübə bu gün döyüşdə düşmən üzərində qələbə qazanılmasında çox geniş imkanlar yaradır. Ali Baş Komandanın döyüş əmrinə hazır olan əsgər və zabitlərimiz əks hücumla cəbhəboyu geniş əməliyyata başladı.



Döyüşlərimiz uğurla davam edir, torpaqlarımız azad olunur, digər bölmələrdən gələn qələbə xəbərləri şəxsi heyətimizi daha da ruhlandırır. Düşmən məğlubiyyətini dərk etməkdədir. Xalqımız torpaqlarımızın azad olunduğu günü səbirsizliklə gözləyir. Tezliklə Böyük Qələbə qazanılacaq".

**Səxavət BAXIŞOV,**
**"N" hərbi hissəsinin zabiti**

Azərbaycanın tarixi torpaqlarını işğal edən mənfur ermənilərin qəsbkarlıq planları dünyaya bəlli oldu. Azərbaycanın haqq işi uğrunda apardığı mübarizəsini dəstəkləyən dövlətlər ölkəmizin yanında olduğunu dedilər.

2018-ci ilin mayında Naxçıvanda uğurlu Günnüt əməliyyatında, cari ilin iyulunda Tovuz hadisələrində Azərbaycan Ordusu düşmənə ağır, sarsıdıcı zərbələr endirdi. Bu gün ordumuz dünyanın ən güclü orduları sırasında yer alıb. Dünyanın ən müasir silah və texnikası Azərbaycan Ordusunun silahlanmasına daxil edilir. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev dövlətimizin təhlükəsizliyinin, ərazi bütövlüyünün, suverenliyinin qarantı olan ordumuza diqqət və qayğısını ən yüksək səviyyədə həyata keçirir. Ordumuzun peşəkarlığı, döyüş qabiliyyəti gündən-günə artır. Şəxsi heyət Vətənimizin ərazi bütövlüyü uğrunda, torpaqlarımızın azadlığı naminə Ali Baş Komandanın döyüş əmrinə hazır olduğunu hər zaman bəyan edib. Genişmiqyaslı təlimlərdə gücünü, döyüş təcrübəsini artıran ordumuzun şəxsi heyəti bu gün düşmənə ən müasir silahlardan zərbələr endirir. Bu əməliyyat Ermənistan silahlı qüvvələrinin işğal etdiyi torpaqların azad olunması əməliyyatıdır. Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı.

Əməliyyatın ilk günlərində bir sıra yaşayış məntəqələrimiz işğaldan azad edildi. Dövlət başçımızın nümayiş etdirdiyi qətiyyət, xalqımızın ordusuna dəstəyi bizi qələbələrə səsləyir. Azərbaycan xalqı heç vaxt işğalla barışmayacaq, Azərbaycan Ordusu xalqından güc alaraq tezliklə öz ərazi bütövlüyünü bərpa edəcək.

**Baş leytenant**
**Xalid BAYRAMOV,**
**"N" hərbi hissəsi**



Biz də ermənilər mövqelərimiz üzərinə hücum edərkən "həyəcan" çağırışı ilə döyüşlərə atıldıq. Qısa müddət ərzində düşmən həmlələrinin qarşısını qətiyyətlə alıb əks-hücuma keçdik. Erməni işğalçıları qarşımızda çox duruş gətirə bilmədilər. Çox keçmədi ki, qəsbkarlar ağır itkilər verərək geri çəkilməyə məcbur oldular. Az vaxt ərzində Azərbaycan Ordusunun gücü, qüdrəti aydın göründü. Düşməni təqib edərək illərdən bəri dayandıqları mövqelərindən geri qovduq. Uzun müddətdən bəri işğalda olan torpaqlarımıza ayaq basdıq. Torpaqlarımızı qəsbkarlardan azad edirik. Biz bu güclə, bu qüdrətlə qısa müddət ərzində düşmənə qalib gələcək, onları məhv edəcəyik. Yeni-yeni qələbə və uğurlarımızla xalqımızı sevindirəcəyik! Biz buna qadirik. Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə qəhrəmanlıq göstərərək, Qarabağı erməni işğalçılarından azad edərək, tarix yazacaq!

Torpaqlarımızın azadlığı uğrunda gedən müqəddəs döyüşlərdə ordumuzun hissələri erməni qəsbkarlarının müqavimətini yararaq irəliləyir. Azərbaycan Ordusunun zabit və əsgərləri döyüşlərdə böyük hünər və rəşadət göstərərək, düşmənə sarsıdıcı zərbələr vururlar. Erməni işğalçıları bu sarsıdıcı zərbələr qarşısında geri çəkilirlər. Silah-sursatlarını, zirehli texnikalarını, meyitlərini döyüşdə qoyub gedirlər.

Hərbçilərimiz döyüşlərdə cəsarətlə vuruşur, hünər və qəhrəmanlıqlar göstərirlər. Onlar dəqiq atəş zərbələri ilə düşmənin canlı qüvvəsini məhv edib, atəş nöqtələrini susdururlar.



Əminlik hissi ilə deyə bilərəm ki, hər gün ordumuzun hissələri yeni-yeni zəfər və uğurlar qazanacaq!

**Gizir**
**Kərim ƏLİYEV,**
**"N" hərbi hissəsi**

Torpaqlarımızın işğaldan azad edilməsi üçün hər birimiz döyüşmək niyyəti ilə xidmət etmişik. Mənim yenidən ordu sıralarına qayıtmağıma da bu istək səbəb oldu. Təxris olunduqdan sonra başa düşdüm ki, Ali Baş Komandanın əmri ilə döyüşlərdə mən də iştirak etməliyəm və bu qərarımı həyata keçirmək üçün lazımi təşkilatlara müraciət etdim. Müraciətimə müsbət qərar verildi.

Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətə başlayanda torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edəcəyimə əminliyin sevincini yaşadım. İndi əks-hücum əməliyyatı gedir. Mən də bu əməliyyatda iştirakçıyam.

Düşmənin hücumu artilleriya atəşləriylə başladı. Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Çıraqlı və Orta Qərvənd, Füzuli rayonunun Alxanlı və Şükürbəyli, Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndləri intensiv atəşə tutuldu. Komandanlığın tapşırığına əsasən, hücumun qarşısını almaq, qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədi ilə cavab tədbirləri gördük. Əks-hücum əməliyyatı nəticəsində düşmənin silah və sursat anbarını, bir neçə texnikasını və şəxsi heyətini məhv etdik.

Döyüşlərdə 7 kəndimiz işğaldan azad edildi.

Azərbaycan torpaqlarının bir hissəsinin işğaldan azad edilməsi Azərbaycan xalqının qəhrəmanlığı, Azərbaycan Ordusunun dərsliklərə salınmalı olan peşəkarlığı və mətanəti sayəsində mümkün oldu. Ali Baş Komandanımızın da qeyd etdiyi kimi: "Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan vətəndaşları son dərəcə vətənpərvərdirlər..." Minlərlə Azərbaycan vətəndaşının döyüşlərə can atması, bununla bağlı müvafiq qurumlara müraciət etməsi bizi ruhlandırır, qələbədən-qələbəyə aparır. Xalqından güc alan Azərbaycan Ordusu tezliklə xalqına Qələbə sevinci bəxş edəcək. Bugünkü qələbələrimiz, cəbhə xəttində əldə etdiyimiz uğurlar xalqımızdan, Ali Baş Komandanımızdan aldığımız gücün nəticəsidir. Ordu xalqından güc alır, xalq ordusuna inanır. Bu inamın sayəsində üçrəngli Azərbaycan bayrağı Ağdamda, Xankədidə, Şuşada dalğalanacaq və həmin bayraq Ali Baş Komandanımızın da bildirdiyi kimi, Qələbə paradında nümayiş etdiriləcək. O gün uzaqda deyil!

**Çavuş**
**Abdulla ABDULLAYEV,**
**"N" hərbi hissəsi**

AZƏRBAYCAN ORDUSU

# Döyüşünüz işğaldan qurtuluş döyüşüdü!

*Sentyabrın sonları Azərbaycan əsgərinin döyüş əzmini qələbə ruhuyla tamamlayacağı ay kimi tarixləşdi. Torpaqlarımızı işğaldan tamamilə azad etmək, sərhədləri səngərlərə köçürmək amalıyla xidmət edən Azərbaycan əsgəri tarixi missiyasını yerinə yetirməkdədir.*

*Düşmənin hücumunun qarşısı alındı, bölmələrimiz əks-hücum əməliyyatıyla düşmənin mövqelərini yardı, dayaq məntəqələrini dağıtdı, döyüş texnikalarını sıradan çıxartdı, canlı qüvvəsini məhv etdi. Bu döyüş Azərbaycan əsgərinin qalibiyyət döyüşü kimi tarixləşəcək.*



Əks-hücum əməliyyatına kimi səngərlərdə əsgərlərlə söhbətləşəndə "Ali Baş Komandanın döyüş əmrinə hazırıq!", - deyirdilər, "Torpaqlarımızı işğaldan tamamilə azad edəcəyik!" - deyirdilər, "Bugünkü çağırışçılar işğaldan azad edəcəyimiz torpaqlarda



xidmət edəcəklər!" - deyirdilər. Onların yüksək döyüş əzmini, qələbə ruhunu ictimaiyyət həmişə etimad, güvənc, inam bilib. Bu etimadın, güvəncin, inamın işığında görürdük döyüşləri. Bu qətiyyətdə hər əsgərin, hər zabitin ruhunun işartısın görürdük. Bu işartıları həmişə milli ruhdan səngərlərə süzülən işartılar bilmişik. Onu da bilmişik ki, bu ruh qalibiyyəti yaşadacaq və yaşadan ruhdu.

Neçə gün əvvəl səngərdə olanda hələ döyüşlər başlamamışdı, Ermənistanın bölmələri hələ hücuma keçməmişdi, ətraf rayonları artilleriya atəşinə tutmamışdı, Azərbaycan Ordusunun bölmələri əks-hücuma keçməmişdi, ancaq döyüş ovqatı vardı səngərlərdə. Əsgərlərlə döyüş əzminin, qələbə ruhunun cazibəsində kəlmələşmişdik. Əsgər və zabitlərlə qələbə ruhundan, torpaqlarımızın işğaldan azad edilməsi haqda Ali Baş Komandanın verəcəyi döyüş əmrindən danışmışdıq. Zabitlərin də, əsgərlərin də baxışlarında istək görmüşdüm, dönməz qətiyyət görmüşdüm. Bu istəyi, bu qətiyyəti döyüşlərin tamamlanacağına, qələbə qazanılacağına inamla izləmişdim. Bugünkü inamım o günkü inamdan daha dönməzdir. Onda əsgərlərdən biri 2016-cı ilin Aprel döyüşlərini xatırlatmışdı. Belə gərəkli xatırlatmaları qürur hissi ilə dinləmişdik. "Bu qürurun davamını ictimaiyyətə siz daha əzəmətlə yaşadacaqsınız!" - demişdim. Əsgərlər bu fikri nəinki razılıqla qarşılamışdılar, həm də sanki "Dediklərinizi mütləq gerçəkləşdirəcəyik. Döyüşlər başlasın, biz vəzifə borcumuzu - torpaqlarımızı işğaldan azad etməyi qanımız bahasına da olsa yerinə yetirəcəyik!", - əsgərlərin baxışlarından oxuduğum bu mətləbi də döyüş əzminin, qələbə ruhunun nəticəsi bilmişdim.

Ordu bölmələrimiz əks-hücum əməliyyatını qalibiyyətlə davam etdirir. İctimaiyyət ilkin qələbələri Böyük Qələbənin başlanğıcı bilir. Füzuli və Cəbrayıl istiqamətlərində kifayət qədər böyük hərbi üstünlüyə malik olmağımız, Tərtər-Ağdərə istiqamətində düşmənə sarsıdıcı zərbələr vurulması, neçə-neçə strateji yüksəkliyin, bu sıradan Murovdağın düşməndən azad edilməsi, düşmənin onlarla döyüş texnikasının, uçuş aparatlarının, canlı qüvvəsinin məhv edilməsi Böyük Qələbə ərəfəsində olduğumuzu təsdiqləyir. Hərbçilərimiz əks-hücum əməliyyatını qələbəylə nəticələnəcək əmr kimi yerinə yetirirlər.

Neçə gün əvvəl səngərdə şəhidlikdən, şəhidlərdən də danışmışdıq, qəhrəmanlıqdan, qəhrəmanlardan da. Əsgərlərin dedikləri mənə min illərdən bəri yaşanılan bir həqiqəti yenidən yaşatmışdı: xalqımızın yaşantıları torpaq uğrunda - Vətən uğrunda döyüşlərdə şəhidlikdən keçib. Qələbəni şəhidlik mərtəbəsində yaşaya-yaşaya döyüşüb. Hər əsgərimiz, zabitimiz, Dövlət himnimizdə deyildiyi kimi, Vətən üçün can verməyə - şəhid olmağa hazırdır. Təki torpaqlarımız azad edilsin.

Əsgərlərdən biri demişdi ki, babam yerli müdafiə batalyonunun tərkibində Ağdamda döyüşüb, atam ordumuzda xidmət edib, qardaşım bir neçə ay əvvəl tərxis olunub. Döyüş əmri veriləndə, mən də döyüşəcəm. Bilirəm ki, qardaşım da döyüşlərə can atacaq. Mütləq gələcək. Mütləq döyüşəcək. Biz babamızın yanına qalib nəvələr, ata-anamızın yanına qalib oğullar kimi qayıdacağıq. O kəlmələri qələbənin işığı bilmişdim. İndi döyüşlər gedir...

Azərbaycan Ordusu düşmənin müqavimətini qıraraq qələbələr qazanır. Bu qələbələr əsgərlərimizin, zabitlərimizin döyüş əzminin, qələbə ruhunun dönməzliyidi. Hərbi qulluqçularımız Ali Baş Komandanın əks-hücum əmrini torpaqlarımızın işğaldan azad edilməsi əmri bilib döyüşürlər. Döyüşlər Azərbaycan əsgərinin, döyüş və mənəvi-psixoloji hazırlığının yüksək səviyyədə olduğunu da, vətənpərliyini də təsdiqləyir. Əsgərlər hər döyüşü işğalı sona çatdıracaq son döyüş bilir. Hər mövqe uğrunda qətiyyətli döyüş gedir. Müqavimət göstərən düşmənin mövqeləri dağıdılır, müqavimətdə iştirak edən döyüş texnikaları məhv edilir. Düşmənin mövqelərdən qaçdığı da faktdır. Düşməni buna Azərbaycan əsgərinin qələbə ruhu, yüksək döyüş hazırlığı məcbur edir.

Döyüşlərdə qazanılan qələbələr ictimaiyyətin güvəncinin, əminliyinin, inamının qələbələridir. Azərbaycan əsgəri qətiyyətlə döyüşür, düşmənin inadını qıra-qıra, düşmənin niyyətini çığnayıb keçə-keçə döyüşür. Azərbaycan əsgəri Ağdaban, Bağanıs-Ayrım, Meşəli, Xocalı faciələrinin qisasını ala-ala döyüşür. Azərbaycan əsgəri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bütün şəhidlərimizin qisasının alınacağı haqqında dediyi fikirləri gerçəkləşdirməkdədir. Döyüşlər şəhidlərimizin ruhunun arzuladığı döyüşlərdir. Bu döyüş ərazi bütövlüyümüz təmin ediləndə başa çatacaq. Bu döyüşlər Ali Baş Komandanın "Bizim başqalarının torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik" kəlamının işığında gedən döyüşlərdir.

Döyüşlər gedir...



Bütün məmləkət boyu hamı özünü döyüşənlərin sırasında hiss edir. Hamıya elə gəlir ki, yaralananları döyüşün içindən çıxardanların, yaralananlara yardım göstərənlərin sırasındadır. Bu hissetmə, bu duyğu ruhun bölünməzliyidir; bölünməz ruh döyüşləri Böyük Qələbəylə tamamlayacaq!

Döyüşlər gedir...

Döyüşlərə yaxın yaşayış məntəqələrində əhalinin döyüşlərə münasibəti də müharibəaparmanın tələblərinə uyğundur - əhali düşmənin artilleriya atəşlərindən vahimələnmir. Camaat özünü döyüşün iştirakçısı bilir. "Döyüşən əsgərlərimiz bilsin ki, biz onlara, ordumuza güvənirik, inanırıq ki, bu döyüşü qələbə ilə başa çatdıracaqlar. Bu inama, bu güvəncə görə istəyirik ki, əsgərlərimiz daha qətiyyətlə döyüşsünlər, bizim ev-eşiyimizə bağlılığımızı, ocağımıza sədaqətimizi Vətənə sədaqət bilsinlər. Bu, Azərbaycan əsgərinin qələbə ruhunu daha da kükrədir. Azərbaycan əsgərinin qələbələrini ömrümüzə düşən işıq bilirik", - o kəndlərin sakinlərinin baxışlarından kəlmələrini oxumaq çətin deyil...

Əks-hücum əməliyyatına kimi döyüş əzminizlə, qələbə ruhunuzla qürrələnirdik, Azərbaycan əsgəri. İndi döyüşçünüzlə, qələbələrinizlə qürrələnirik. Qələbələrin Azərbaycanı qardaş bilənlərin gözlərinin nurunu artıracaq, qəlbipaxırların gözlərini qamaşdıracaq!..

Neçə gün bundan əvvəl səngərdə əsgərlərdən eşitdiyim bir fikri xatırlayıram: Əsgər qəhrəman olmaq üçün döyüşmür, ancaq döyüşü qəhrəmanlıq döyüşü olur. Bu fikir mənə gözəl bir mətləb yaşatmışdı: yüksək döyüş və mənəvi-psixoloji hazırlığa malik olan Azərbaycan əsgəri hər döyüş əmrini qəhrəmanlıq döyüşü kimi yerinə yetirir. Qəhrəmanlıq döyüşü qələbəylə nəticələnir. Azərbaycan əsgəri qələbə döyüşündədir. Bu döyüşü hamı ruhuyla izləyir, bu döyüşü güllə-güllə, mərmi-mərmi yaşayır, döyüş-döyüş Füzuliyə, Ağdama, Cəbrayıla, Qubadlıya, Laçına, Zəngilana, Cıdır düzünə, Şuşaya yaxınlaşır...

Döyüşünüz işğaldan qurtuluş döyüşüdü, Azərbaycan əsgəri!

Döyüşün!

**Rəşid HÜSEYNOV,**
**"Azərbaycan Ordusu"**

# Ölkəmizdəki xarici hərbi attaşelər və beynəlxalq təşkilatların nümayəndələri əməliyyat şəraiti haqqında məlumatlandırılıb



*Sentyabrın 29-da Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsi tərəfindən Azərbaycan Respublikasında akkreditə olunmuş xarici hərbi attaşelərə və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələrinə cəbhədəki vəziyyət barədə məlumat verilib.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbir iştirakçılarına Azərbaycanın haqlı mövqeyi bir daha çatdırılıb və erməni tərəfindən fərqli olaraq, qoşunlarımızın düşmənin sadəcə hərbi qüvvəsini və obyektlərini hədəf aldığı bir daha vurğulanıb.

Əlavə olaraq, Azərbaycan Ordusunun həyata keçirdiyi əməliyyatların beynəlxalq hüququn prinsipləri və müharibə qanunları çərçivəsində aparıldığı xüsusi ilə qeyd edilib və qonaqları maraqlandıran suallara cavab verilib.

## "Biz doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq"

Ermənistan hücumları dərhal dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməlidir.

AZƏRTAC Anadolu agentliyinə istinadla xəbər verir ki, bunu Türkiyə Respublikasının Milli Müdafiə naziri Hulusi Akar Ermənistanın cəbhə xəttində törətdiyi genişmiqyaslı təxribatlarla bağlı açıqlamasında bildirib.

Nazir deyib: "Sülh yolu ilə həllə çağırış edənlər, "dərhal atəşkəs" istəyənlər, dialoqu indi xatırlayanlar, Azərbaycan ərazisinin 20 faizi, o cümlədən Dağlıq Qarabağ işğal altında olarkən, Xocalıda minlərlə günahsız insan vəhşicəsinə, haqq-hüquq tanımadan uşaq, qadın və yaşlı demədən qətlə yetirilərkən, 30 ildir milyonlarla insan evindən, yurdundan didərgin düşərkən harada idilər? Türkiyə ilə Azərbaycan arasındakı münasibətlər "bir millət, iki dövlət" prinsipinə əsaslanır. Kədərdə də, sevincdə də daim bərabərik. Bu gün doğma torpaqlarını qorumaqda azərbaycanlı qardaşlarımızın yanındayıq. Ermənistan dərhal hücumları dayandırmalı, xaricdən gətirdiyi muzdluları, terrorçuları geri göndərməli və Azərbaycanın işğal edilmiş torpaqlarını boşaltmalıdır. Beləliklə, atəşkəs, sülh və sabitlik təmin edilməlidir".

## Müdafiə Nazirliyi döyüşlərə qatılmaq istəyən könüllülərə müraciət etdi

Torpaqlarımızın işğaldan azad edilməsi uğrunda Azərbaycan Ordusunun düşmənə qarşı apardığı döyüşlərdə əldə etdiyi uğurlar xalqımızda döyüş ruhunun yüksəlməsinə səbəb olub. Azərbaycan əsgərinin uğurundan ruhlanan on minlərlə həmvətənimiz Müdafiə Nazirliyinə müraciət edərək, ordumuzla birlikdə könüllü olaraq döyüşlərə qatılmaq istədiyini bildiriblər.

Müdafiə Nazirliyinin rəhbərliyi Azərbaycan əsgərinə mənəvi dəstək olduqlarına görə təşəkkür edir və döyüşlərə qoşulmaqla şəxsi heyətin yanında olmaq istəyən hər kəsə dərin minnətdarlığını çatdırır.

Bildiririk ki, könüllü döyüşlərə qatılmaq arzusunda olan döyüş və müharibə təcrübəsinə malik vətəndaşlarımız hərbi hissələrə deyil, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə müraciət etsinlər.

Qələbə bizimlədir! Vətən torpaqları işğaldan azad ediləcəkdir!

## Qələbən mübarək, əsgər qardaşım!

Bütün müharibələrə torpaq səbəb olur. İşğalçı işğalı davam etdirmək, işğala məruz qalan torpaqlarını azad etmək üçün döyüşür.

Ermənistanın Azərbaycandan ərazi iddiası elan edilmədən başlayan müharibəyə səbəb oldu...

2016-cı ilin Aprel, 2020-ci ilin iyul döyüşləri Azərbaycan Ordusu bölmələrinin qələbəsi ilə başa çatdı. Bu qələbələr təsdiqlədi ki, ordumuz torpaqları işğaldan azad etməyə qadirdir.

Sentyabrın 27-də düşmənin hücumunun qarşısı qətiyyətlə alındı, Ali Baş Komandanın əmri ilə bölmələrimiz əks-hücum əməliyyatına başladı, ilk qələbələr qazanıldı.

Döyüşlər davam edir.

Mən tələbəyəm. Bütün tələbələr bu döyüşləri vətəndaş-tələbə kimi izləyir və inanırıq ki, bu qələbələr Böyük Qələbənin başlanğıcıdır.

Azərbaycanın güclü dövlət, ordusunun güclü ordu olduğunu düşmənlərimiz də bilir. Onu da bilir ki, Azərbaycan ərazisində ikinci erməni dövləti yarada bilməyəcək.

Döyüşlər gedir. Bu döyüşlər Böyük Qələbənin döyüşləridi, ictimaiyyət, bu sıradan tələbələr inanır ki, yaxın vaxtlarda Azərbaycan Ordusu torpaqlarımızı işğaldan tamamilə azad edəcək. Biz əsgər qardaşlarımızı ilkin qələbələr münasibətilə təbrik edirik.

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun tələbəsi**

# Gənclər səfərbərlik çağırışına böyük coşqu ilə qoşulublar

Ermənistan silahlı qüvvələrinin cəbhəboyu ərazilərimizdə törətdiyi təxribatın qarşısının alınması, torpaqlarımızın işğaldan azad edilməsi üçün artıq ikinci gündür Ali Baş Komandanın müvafiq sərəncamı ilə ölkəmizdə qismən səfərbərlik elan olunub. Respublikamızın digər yerlərində olduğu kimi, cənub bölgəsində də ordu sıralarına çağırılanlar qələbə əzmi ilə yola düşüblər. Həmçinin düşmənə qarşı könüllü döyüşmək istəyənlərin müraciətləri də qeydə alınır.



AZƏRTAC xəbər verir ki, Lerikdə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarəsinə könüllü olaraq cəbhə bölgəsinə gedərək döyüşmək və lazımi köməklik göstərmək istəyən vətəndaşlarımız tərəfindən çoxsaylı müraciətlər daxil olur. Xüsusilə ucqar dağ kəndlərinin sakinləri bu günü çoxdan gözlədiklərini və torpaqlarımızın azadlığı uğrunda vuruşmağa hazır olduqlarını bildirirlər.

Könüllü çağırışçı Aftandil Qafarzadə: "Ehtiyatda olan hərbi qulluqçuyam. Ön xətdəki qardaşlarımızın yanına getməyi, torpaqlarımızı düşməndən azad etmək kimi şərəfli missiyada az da olsa mənim də xidmətimin olmasını istəyirəm. Buna görə könüllü müraciət etmişəm. Qeydiyyata alındım, nə zaman əmr gəlsə, Vətənimizin müdafiəsinə qalxmağa hazıram".

Ön cəbhəyə yollanmaq üçün Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin yerli idarəsinə gələn həmvətənlərimiz böyük sevinc hissi və ruh yüksəkliyi ilə yola düşəcəkləri anı gözləyirdilər. Ali Baş Komandanın səfərbərlik çağırışına səs verənlər arasında qazilərimiz də çoxdur.

Aprel döyüşlərinin iştirakçısı Şaiq İbrahimzadə: "Aprel döyüşlərində iştirak etmişəm. İndi də Ali Baş Komandan İlham Əliyevin sərəncamı ilə qismən səfərbərlik elan edilib. Bu çağırışa səs verərək torpaqlarımızı düşmən işğalından azad etməyə gəlmişik. Mən bir əsgər kimi döyüş tapşırığı almağa hazıram. Şəhidlərimizin qanı yerdə qalmayacaq. İnşaallah, üçrəngli bayrağımız Kəlbəcərdə, Laçında, Şuşada dalğalanacaq".

Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Lerik rayon təşkilatının sədri Veysəl Məlikov: "Bu gün çox sevindirici gündür. Ölkənin hər yerində olduğu kimi, Lerikdə də bayram ab-havası var. Ordumuzun əldə etdiyi zəfərlər bizi çox qürurlandırır. Bu günü Azərbaycan Ordusu illərdir ki, gözləyirdi. Mən 1993-cü illərdə xidmət etmişəm. Amma mənim xidmət etdiyim ordu indiki ordu deyil. Bu gün müasir və güclü ordumuz var, düşmən üzərində qələbə çalmağa tam qadirdir. Azərbaycan əsgərinə qələbə arzulayıram".

Ölkəmizin hər yerində olduğu kimi, Lerikdə də sentyabrın 27-dən Ermənistan silahlı qüvvələrinin dinc sakinləri məqsədyönlü şəkildə atəşə tutmaları, mülki insanlara qarşı terror vasitələrindən istifadə etmələri gənclərimiz tərəfindən ciddi narazılıqla qarşılanıb və onları yenidən ordu sıralarına qatılmağa sövq edib.

Valideyn Şəhla Musayeva: "Ailəmizdən artıq 6-cı gənc düşmənlə üz-üzə döyüşür. Biz Vətəni düşməndən qorumaq üçün mərd oğullar yetişdiririk. Ali Baş Komandanımızın yanındayıq. Onu həmişə olduğu kimi, bu mötəbər və vacib çağırışında da dəstəkləyirik. Bizim əsgərlərimiz öz torpağı uğrunda, Qarabağ uğrunda vuruşur. Allah onları düşmən hiyləsindən qorusun!".

Valideyn Tofiq Hacıyev: "Mənim də iki oğlum hazırda hərbçidir. Döyüşlərə qatılan bütün lerikli gənclərə möhkəm iradə və qüvvət arzulayıram. Qarabağ bizim yolumuzu gözləyir. Onun işğaldan azad olunacağı gün yaxınlaşıb. Allah ordumuzu düşmən üzərində müzəffər etsin. Üçrəngli bayrağımızın tezliklə Şuşada dalğalanacağına əminik. Allah bu yolda ordumuza yardımçı olsun".

Siyahı üzrə adları qeydiyyata alınmış lerikli çağırışçılar "Qarabağ bizimdir", "Qarabağ Azərbaycandır!" kimi şüarlar səsləndirərək, onlar üçün ayrılan avtobuslara minib bayram əhval-ruhiyyəsi ilə cəbhə xəttinə yola salındılar.

Qeyd edək ki, hərbi komissarlığa hər gün axın edən könüllü leriklilər torpaqlarımızın işğaldan azad olunması üçün müsəlləh əsgər kimi ordumuzun sıralarına yenidən daxil olmaqdan şərəf duyurlar. Müzəffər ordumuzun tezliklə qazanacağı qələbədə onların da payının olmasını arzu edirlər.

Ovqat

# Qələbə səninlədir, Azərbaycan əsgəri!



*Neçə gündür torpaqlarımızın azadlığı uğrunda qanlı döyüşlər gedir. Erməni qəsbkarları sentyabrın 27-də səhər ertədən müxtəlif istiqamətlərdən hücuma keçdi, mövqelərimizi atəşə tutdu, irəliləməyə, yeni ərazilərimizi zəbt etməyə çalışdı. Ordumuzun hissələri az vaxt ərzində düşmənin hücumunun qarşısını aldı, əks-hücuma keçdi.*

Qısa müddət ərzində düşməni geri oturdan Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızın işğaldan azad edilməsi uğrunda döyüşlərdə böyük hünər və rəşadətlə döyüşürlər. Erməni işğalçıları bu hünərin, bu qəhrəmanlığın qarşısında duruş gətirə bilməyərək, silah-sursatını, meyitlərini mövqelərində tərk edib geri qaçırlar.

Döyüşlərdə üstünlüyü ələ alan Azərbaycan Ordusu düşmənə sarsıdıcı zərbələr vurur. Atəş səsləri illərdən bəri hökm sürən sükutu pozdu. Vətənpərvərlik hisslərindən güc alan zabit və əsgərlərimiz işğalda olan torpaqlarımızı azad etmək üçün qətiyyətlə döyüşürlər. Hərbçilərimiz qəsbkarların mövqelərini darmadağın etdilər. Döyüşlərdə böyük uğurlar qazana-qazana xalqımızı ürəkdən sevindirirlər. Xalq həmişə ordusunun gücünə, qüdrətinə inanıb. İnanıb ki, getdikcə güclənən Azərbaycan Ordusu döyüşlərdə böyük hünər və qəhrəmanlıqlar göstərəcək. Erməni qəsbkarlarını işğal etdikləri ərazilərimizdən çıxardacaqlar.

Azərbaycan xalqının Azərbaycan Ordusuna bəslədiyi ümidlər özünü doğrultdu. Cəsur, igid zabit və əsgərlərimiz şir kimi düşmən üzərinə atılaraq, onları məhv edir, mövqelərindən geri oturtdular. Böyük strateji əhəmiyyətə malik olan yüksəklikləri, yaşayış məntəqələrini erməni qəsbkarlarından azad etdilər. Bu uğurlardan xalqın üzü gülür, bu zəfərlərdən sevincimiz artır, bu nailiyyətlərdən şəhidlərimizin narahat ruhları rahatlıq tapır. Bu uğurlardan Böyük Qələbəyə gedən yollar görünür. Bu uğurlar, Azərbaycan Ordusunun gücüdür, onun sıralarında xidmət edən zabit və əsgərlərin qəhrəmanlığıdır, igidliyidir.

Azərbaycan Ordusunun, Azərbaycan əsgərinin qazandığı uğurlar hamımızı sevindirir. Xalqda işğalda olan ərazilərimizin tezliklə azad olunacağına böyük inam yaradır. İllərdən bəri doğma ocaqlarından didərgin düşmüş insanlar yaxın vaxtlarda ata-baba yurdlarına dönəcəklər. Azərbaycan əsgəri igidliyi, qəhrəmanlığı ilə bunu gerçəkləşdirəcək.

Ermənilər ordularının güclü, qüdrətli olduğu haqqında mif yaratmışdılar. Guya ki, məğlubedilməzdilər, guya ki, qarşısıalınmazdılar. 2016-cı ilin Aprel döyüşlərində ordumuzun uğurla başa çatdırdığı hücumlar bu uydurmanı məhv etdi.

Sentyabrın 27-dən başlayan döyüşlərdə Azərbaycan Ordusunun qazandığı böyük uğurlar dünyaya bir daha göstərdi ki, erməni ordusu gücsüzdür, acizdir.

Bu gün Azərbaycan Ordusunun zabit və əsgərləri torpaqlarımızın azad olması uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərərək erməni işğalçılarına sarsıdıcı zərbələr vurur, ağır məğlubiyyətə uğradır. Bu uğurlar bir daha göstərir ki, Azərbaycan Ordusu ərazi bütövlüyümüzü qorumağa qadirdir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu günlərdə xalqa müraciətində ordumuzun gücündən, qüdrətindən söz açaraq dedi: "...Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir... Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!"

Düşmən ordusu məhvə, məğlubiyyətə məhkumdur. Çünki o işğalçıdır. Düşmən torpaqlarımızı işğalda saxlamağa çalışır. Cəfəng-cəfəng bəyanatlar verərək işğalına haqq qazandırmağa çalışır. Azərbaycan Ordusunun şəxsi heyəti haqq işimiz uğrunda vuruşur. Düşmənin işğalında qalmış torpaqlarımızın azadlığı uğrunda, ölkəmizin ərazi bütövlüyü uğrunda vuruşur. Haqq işi uğrunda vuruşanlar həmişə qalib gəlirlər, döyüşlərdən zəfərlə, uğurlarla çıxırlar. Azərbaycan Ordusu bu döyüşlərdən də zəfərlə çıxacaq. Sarsıdıcı zərbələri ilə erməni qəsbkarlarını məhv edəcək.

Döyüşlər davam etdikcə Azərbaycan Ordusunun yeni-yeni uğurlarını, zəfərlərini eşidəcəyik. Azərbaycan əsgəri Böyük Qələbə qazanacaq. Qələbə səninlədir, Azərbaycan əsgəri! Ürəyində qövr edən döyüş ruhu, qəlbində cuşa gələn Qələbə əzmi səni yeni-yeni zəfərlərə qovuşduracaq!

**Vahid MƏHƏRRƏMOV,**
**"Azərbaycan Ordusu"**

# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən əsgər oynaqlarında problem olmasına və çətinliklə yeriməsinə baxmayaraq müalicəyə göndərilmir.

Hərbi qulluqçu Hrant Minasyanın oynaqlarında kəskin ağrılar olduğundan yeriməkdə çətinlik çəkir. Hərbi hissənin həkimi bildirib ki, oynaqlarındakı patologiya səbəbindən H.Minasyan hərəkət etdikcə onun sümükləri yeyilir ki, bu da onun ayaqlarında funksional pozuntuya səbəb olur.

Ermənistan ordusunun hərbi qulluqçusu H.Minasyanın təcili əməliyyat olunmasına baxmayaraq hərbi hissə komandanlığı onun müalicəyə göndərilməsini gecikdirir.

Xəbəri yayanın iddiasına görə, Minasyanın valideynlərindən rüşvət tələb olunub, onların isə ödəməyə gücləri çatmadığından əsgərin hospitala göndərilməsi bilərəkdən gecikdirilir.

* * *

Tovuz istiqamətində gedən döyüşlərdə yaralanmış erməni hərbçilərin müalicəsinin ictimaiyyətdən gizli saxlanılmasına cəhd göstərilməsinə baxmayaraq bu barədə məlumatlar yayılır.

Bəlli olub ki, döyüşlər zamanı Dağlıq Qarabağdan Tovuz istiqamətinə gətirilən bölmələrdən birində xidmət edən 3 nəfər erməni hərbi qulluqçu - 2000-ci il təvəllüdlü Sarkis Karamyan, ayağından yaralanan Onik T. və qəlpə yarası almış 535-ci əlahiddə motoatıcı alayın "Mxo" ləqəbli zabiti tibb müəssisəsində müalicə olunurlar.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçu A.Antoyan mülki şəxsi döydüyünə görə istintaqa cəlb edilib.

Hərbi qulluqçu komandirindən icazə alaraq Madagiz yaşayış məntəqəsinə gedib. Buradakı kafelərdən birində nahar edən hərbçi xeyli miqdarda spirtli içki qəbul edib. Sərxoş halda A.Antoyan kafedə çalışan qadına qarşı nalayiq sözlər işlədib və əxlaqsız hərəkətlərə yol verib. Nəticədə kafeni işlədən şəxslə hərbi qulluqçu arasında başlayan mübahisə sonda davaya çevrilib. Nəticədə A.Antoyan mülki şəxsi döyərək ona müxtəlif xəsarətlər yetirib.

Qadının və kafenin sahibinin şikayəti əsasında cinayət işi açılıb və erməni hərbçisi istintaqa cəlb edilib. Əgər şikayətçilər israr edərlərsə, A.Antoyanı 4 il müddətinə həbs gözləyir.

* * *

İşğal edilmiş yaşayış məntəqələrimizdən birində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən daha bir erməni hərbi qulluqçunun meyiti tapılıb.

Kəşfiyyat taborunun hərbi qulluqçusu Vartan İsraelyan naməlum şəraitdə ölüb.

Faktla bağlı cinayət işi açılıb, hərbi qulluqçunun ölüm səbəbləri araşdırılır.

* * *

İşğal edilmiş Xocavənd yaşayış məntəqəmizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrindən birində xidmətdən bezən əsgər Ara Petrosyan qəsdən özünə xəsarət yetirib.

Dözülməz şəraitdən, təhqir və təzyiqlərdən təngə gələn A.Petrosyan odlu silahdan atəş açmaqla özünü yaralayıb.

Hərbi hospitala yerləşdirilən əsgər və onu bu həddə çatdıran komandiri barəsində cinayət işi açılıb.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 557
Nüsxə 4000